# Nəsimi rayonunda KİV nümayəndələri ilə görüş

1875-ci il Azərbaycan Milli Mətbuatının yarandığı tarixdir. "Əkinçi" qəzetinin təməl daşını böyük mütəfəkkir, ömrünü məşələ çevirən Həsən bəy Zərdabi qoymuşdur. "Əkinçi" müsəlman aləmində böyük əks-səda doğurmuşdu. Qəzetin sorağı Qafqazın hüdudlarından aşıb Krıma, Volqaboyuna, Sibirə çatmışdı.

140 il öncə "Əkinçi" qəzetinin nəşri yaydığı ideyalar baxımından XIX əsrdə Azərbaycan mədəniyyətinin təkamülü və inkişafı tarixində çox böyük ictimai-siyasi, mənəvi-intellektual hadisə idi.

Bakının Nəsimi rayonunda Azərbaycan Milli Mətbuatının 140 illiyi ilə bağlı geniş tədbir həyata keçirildi. Mərasimdə rayon ictimaiyyətinin, həmçinin KİV nümayəndələrinin əməkdaşları iştirak edirdilər.

Tədbirdə çıxış edən rayon icra hakimiyyətinin başçısının müavini Gülarə Verdiyeva kütləvi informasiya vasitələri nümayəndələrini peşə bayramı münasibəti ilə təbrik edərək dedi: "Jurnalistika böyük zəhmət, xüsusi səy, professional yanaşma, hadisələri operativ qiymətləndirmək və prosesləri düzgün analiz bacarığı tələb edən sənətdir". Bu sözlərin müəllifi olan ümummilli liderimiz, dahi şəxsiyyət Heydər Əliyev mətbuatın inkişafı üçün əlindən gələni etmiş, bu sahənin adamlarına xüsusi ehtiramla yanaşmış, onlardan diqqət və qayğısını əsirgəməmişdi. Onun imzaladığı çoxsaylı fərman və sərəncamlar milli mətbuatımızın inkişafına zəmin yaratmışdır.





Qeyd etmək lazımdır ki, bu gün ölkəmizdə mediaya dövlət qayğısı uğurla davam etdirilir. Mətbuata maliyyə yardımı ayrılır, jurnalistlərə fəxri adlar verilir, onların sosial problemləri həll olunur. Jurnalistlərin mənzil şəraiti yaxşılaşdırılır.

Mərasimdə rayon icra hakimiyyətinin başçısının müavinlərindən Ağaəli Əhmədov və Anar Tağıyev çıxış edərək Milli Mətbuatın 140 illiyi ilə bağlı KİV nümayəndələrini təbrik etdi.

Tədbirdə rayon icra hakimiyyəti tərəfindən KİV nümayəndələrinə hədiyyələr təqdim edildi.

**Qədir ASLAN,**
**"Respublika".**